# MƏTNŞÜNASLIQ

*Y.Rəhnulla. "Əl-Ədvar fi əl-musiqi" əsərinin əlyazma nüsxəsinin paleoqrafik xüsusiyyətləri və müqayisəli təhlili // Əlyazmalar yanmır, 2023, №1 (16), s. 131-136.*

UOT: 09

**Yeganə Rəhnulla**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: yegane.rahnulla@mail.ru*

## "ƏL-ƏDVAR Fİ ƏL-MUSİQİ" ƏSƏRİNİN ƏLYAZMA NÜSXƏSİNİN PALEOQRAFİK XÜSUSİYYƏTLƏRİ VƏ MÜQAYİSƏLİ TƏHLİLİ

### Xülasə

Ərəb dilində yaranmış mədəniyyətə Azərbaycan xalqının töhfə verdiyi əsərlərdən biri bəstəkar, musiqi nəzəriyyəçisi, xəttat Səfiəddin Əbdülmömin b. Yusif b. Faxir əl-Urməvinin "*Əl-Ədvar fi əl-musiqi*" kitabıdır. Musiqinin əsas iki ana elementini təşkil edən səs və üsuldan bəhs edin əsər qısa girişdən sonra 15 fəsildən ibarətdir. Səfiəddin əl-Urməvinin "*Əl-Ədvar fi əl-musiqi*" əsərinin Şərq və Qərq musiqisinin inkişafinda böyük xidmətləri olmuş, ondan sonra yazılan əsərlərdə bu kitabdan geniş istifadə edilmişdir. Əlyazmalar İnstitutunda h. 1270 / m. 1854-cü ildə Azərbaycan katibi Məhəmməd Qulu bin Həsən Qarabağı tərəfindən köçürülmüş *"Əl-Ədvar fi əl-musiqi"* əsərinin yeganə əlyazma nüsxəsi qorunmaqdadır. Səfiəddin əl-Urməvinin Şərq və Qərb musiqi nəzəriyyəsinin inkişafında əvəzsiz xidmətləri olmuş və bu haqda Azərbaycan, eləcə də müxtəlif dövlətlərin tədqiqatçıları araşdırma apararaq yüksək səviyyədə tədqiqatlar təqdim etmişlər. Lakin bu tədqiqatlarda, Azərbaycanda saxlanılan Səfiəddin əl-Urməvinin "*Əl-Ədvar fi əl-musiqi*" əsərinin əlyazma nüsxəsi haqqında məlumata rast gəlinmədi. Bu araşdırma əlyazmaşünaslıq sahəsinə yenilik gətirdiyi kimi, musiqişünaslıq sahəsinə də yenilik gətirərək "*Əl-Ədvar fi əl-musiqi*" əsəri haqqında olan növbəti tədqiqatlara öz tohfəsini verəcəkdir.

***Açar sözlər:*** *Azərbaycan bəstəkarı, musiqi nəzəriyyəçisi, xəttat, Səfiəddin əl-Urməvi, "Əl-Ədvar fi əl-musiqi", Azərbaycan əlyazmaları*

### Giriş

*Orta əsrlərə məxsus Şərqin yazılı abidə nümünələrinin toplandığı vahid mərkəz olan Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda bir çox dillərdə, əsasən də ərəb dilində qələmə alınmış əsərlərin əlyazma nüsxələri qorunmaqdadır. Ərəb dilində yaranmış mədəniyyətə Azərbaycan xalqının töhfə verdiyi əsərlər Xətib Təbrizi (1030/1109), Əsirəddin Əbhəri (1200/1264), Yusif b. İbrahim Ərdəbili (v. 1377) kimi alimlərin*

*zəngin elmi irsinə məxsusdur. Belə Azərbaycan alimlərindən biri bəstəkar, musiqi nəzəriyyəçisi, xəttat Səfiəddin Əbdülmömin b. Yusif b. Faxir əl-Urməvidir.*

*Orta əslərdə Şərq aləmində musiqişünas kimi məşhur olan Səfiəddin əl-Urməvi 1216-ci ildə Cənubi Azərbaycanın Urmiya şəhərində dünyaya göz açmışdır. İlk təhsilini, ibtidai musiqi savadını və udda ifa etməyi doğulduğu yerdə aldıqdan sonra təhsilini davam etdirmək üçün Bağdad şəhərinə köçmüş və burada dövrünün məşhur Universitetlərindən olan "əl-Mustənsəriyyə" yə daxil olmuşdur. O, burada fəlsəfə, məntiq, tibb, riyaziyyat, astronomiya, xəttatlıq, ədəbiyyat, şafei fiqhi kimi elmləri mənimsəmişdi. Musiqi sənətini öyrənməkdə davam edən Səfiəddin, xəttatlıqda da böyük uğur qazanır. Təsadüfi deyil ki, əvvəlcə o, musiqi sahəsində deyil, xəttat kimi şöhrət tapır və Abbasilər sülaləsinin son nümayəndəsi xəlifə əl-Müstəsimin sarayına dəvət olunur. Az vaxtda xəlifənin yaxın əhatəsinə daxil olan sənətkar bir müddətdən sonra saray kitabxanasının rəhbəri və baş xəttat təyin olunur. Kitabların üzünü köçürmək və kitabxana rəhbərliyi Səfiəddini musiqi təhsilini davam etdirməkdən yayındırmır, əksinə zəngin kitab xəzinəsində o, öz biliyini artırır, eləcə də saraydakı qəbullar zamanı ud çalması ilə hamının rəğbətini qazanır Mənbələrdə əl-Urməvinin özünün xəttatlığı, bir çox hökmdarların, o cümlədən Hülakü xanın hakimiyyət dövründə sarayda qonaqlar üçün ud ifa etməyi, bu xidmətinə görə illik nəvacibi haqqında söylədiyi rəvayətlər qeyd edilmişdir [1]. Həmçinin, onun ud çalmaq bacarığı haqqında əfsanələrə mənbələrdə rast gəlinir. Səfiəddin, müasir arfa (çəng) və kanona bənzəyən 81 simli, söyüd, sərv ağacından dördbucaq şəklində düzəldilmiş "Nüzhə" və 33 simli xarici oxşarlıq baxımından rübaba bənzəyən, yalnız çanağı iri olan ərik ağacından düzəldilmiş "Müğni" adlı iki musiqi aləti icad etmişdir [2; 3, c. 35 s. 479-480; 4]. İstedadlı Azərbaycan musiqişünasının bəstəkarlıq və onların sözlərini yazaraq şairliq bacarıqları haqqında müxtəlif rəvayətlər günümüzə gəlib çatmışdır. Bundan əlavə əl-Urməvi, musiqi sahəsində bir çox tələbələrin yetişməsinə də nail olmuşdur. Səfiəddin əl-Urməvi h. 693 / m. 1294-cü ildə Bağdad şəhərində vəfat etmişdir [5].*

Səfiəddin əl-Urməvi, musiqi sahəsində yeni cığır açaraq musiqi nəzəriyyəsi haqqında *"Kitab əl-Ədvar"* və *"Risalə əş-Şərəfiyyə"*, ədəbiyyat sahəsində isə, *"Fi ulum əl-əruz və əl-qəvafi və əl-bədii"* kimi əsərlər qələmə almışdır. *"Risalə əş-Şərəfiyyə"* əsəri Elxanilər sülaləsinin hökmdarı Şəmsəddin Cüveyninin oğlu Şərəfəddin Harun Cüveyniyə həsr olunmuşdur. Müqəddimmə və beş fəsildən ibarət risalənin mənbələrdə yazılma tarixi müxtəlif illərdə: h. 650 / m. 1252, h. 666 / m. 1267-68 kimi qeyd edilmişdir [6, c. 35, s. 130-131]. *"Risalə əş-Şərəfiyyə"* əsərinin əlyazma nüsxələri müxtəlif ölkələrin kitabxanalarında, həmçinin Türkiyə kitabxanalarında doqquz nüsxəsi mühafizə olunur. *"Fi ulum əl-əruz və əl-qəvafi və əl-bədii"* əsəri Böyük Britaniyanın kitabxanasında qorunmaqdadır.

Alimin ən məşhur əsəri *"Kitab əl-Ədvar"* adı ilə tanınan *"Kitab əl-Ədvar fi mərifəti ən-nəğm və əl-əvtar"*, Nəsrəddin Tusinin (v. h. 672 / m. 1273) tövsiyəsi ilə h. 663 / m. 1236 və ya h. 650 / m. 1252-ci ildə Bağdadda qələmə alınmışdır. Həmçinin, əsər *"Əl-Ədvar fi əl-musiqi"*, *"Əl-Ədvar fi mərifəti ən-nəğm və nəsibi əbadihə"*, *"Əl-Ədvar və əl-iqa"* adı ilə də mənbələrdə qeyd edilib [7, c. 26, s. 97-98; 8, s. 19; 9]. *"Ədvar"* ərəb dilində dövr, dönmə sözünün cəmindədir və musiqinin əsas iki ana elementini təşkil edən səs və üsuldan bəhs edir. Əsər qısa girişdən sonra 15 fəsildən ibarətdir. Bu fəsillər musiqinin tərifi, dəsatinlər, aralıqlardakı nisbətlər, Tənafur (qulağa xoş gəlməyən səslər), mülayim (qulağa xoş gələn səslər), dövrlər (84 dövr), iki simin hökmü haqqında, udun simlərinin düzülüşü və səslərin çıxarılması haqqında, məşhur dövrlər haqqında, dövrlərin ortaq səsləri haqqında, dövrlərin təbəqələri haqqında, uda uyğun olmayan akortlar, ritmlərin dövrləri haqqında, nəğmələrin təsiri haqqında kimi mövzuları əhatə edir. Səfiəddinin təklif etdiyi sistem üzrə, musiqi hərfi-ədədi üsulla yazılırdı. Ərəblərə məxsus *"əbcəd"* sisteminin hərfləri səslərin şərti yüksəkliyini, rəqəmlər isə onların uzunluğunu bildirirdi. Kitabın doqquzuncu fəslində 12 muğam dəstgahının adı çəkilir ki, bunların da çoxusu

bizə məlumdur: Üşşaq, Nəva, Əbu Salik ("Busalik"), Rast, İraq, İsfahan, Zirafkənd, Buzurq, Zəngulə, Rəhavi, Hüseyni və Hicaz.

Səfiəddin əl-Urməvinin *"Kitab əl-Ədvar"* əsərinin Şərq və Qərq musiqisinin inkişafinda böyük xidmətləri olmuş, ondan sonra yazılan əsərlərdə bu kitabdan geniş istifadə edilmişdir. Əsasən XIV-XVI əsrlərdə*"Kitab əl-Ədvar"*a bir çox alim şərh yazmışlar, onlardan Cəlaləddin Fəzlullah Ubeydi *"Şərh əl-Ədvar",* Fəxrəddin Məhəmməd Hucəndi, Lütfullah Səmərqəndi, Mübarək Şah, Əbdülqədir Maraği *"Şərh Kitab əl-Ədvar"* adı ilə qələmə aldıqları əsərləri qeyd etmək olar. Həmçinin, əl-Urməvinin *"Kitab əl-Ədvar"*ından bir çox alim bəhrələnərək əsərlər yazmağa da müvəffəq olmuşdur. Onlardan biri Azərbaycan alimi Fəthullah əş-Şirvaninin *"Risalə fi elmi əl-musiqi"* və ya *"Məcəllə fi əl-musiqi"* əsəridir [10, c. 12, s. 463-466; 11, c. 3, s.882]. Bu əsər nəinki orta əsrlərdə hətta müasir dövrdə də öz aktuallığını itirməyib. Təsədüfi deyil ki, yeddi əsr sonra, yəni XX əsrin ortalarında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov özünün *"Azərbaycan xalq musiqisinin əsasları"* kitabında yazırdı: "Yaxın Şərq xalqları musiqisinin nəzəri və əməli inkişafı tarixində başlıca yeri dunyada məşhur olan iki nəfər Azərbaycan alimi, nəzəriyyəçi, musiqişünas tutur: Səfiəddin Ədbülmömin ibn Yusif əl-Urməvi (XIII əsr) və Əbdülqadir Marağai (XIV əsr)". Ü.Hacıbəyov öz əsəri üzərində işlərkən böyük miqdarda kitablar arasında məhz "Kitab əl-Ədvar"ın xüsusi əhəmiyyət kəsb etdiyini anlayaraq, onun foto surətini Nuruosmaniyə kitabxanasından gətirdib bu əsəri araşdırmışdır [2]. Hal-hazırda bu surət, AMEA Mərkəzi Elmi Kitabxanasında saxlanılmaqdadır və bu barədə olan tədqiqatlarda *"Kitab əl-Ədvar"* əsərinin məhz bu surətindən istifadə edilmişdir [12, s.18].

*"Kitab əl-Ədvar"* əsərinin əlyazma nüsxələri Misirdə (15), Türkiyədə (9), Böyük Britaniyada (6), Avstraliya (2), Almaniyada, Amerika Birləşmiş Ştatlarında, İrlandiyada, Fransada, Səudiyyə Ərəbistanında, İraqda, Tunisdə qorunmaqdadır. Onların içərisində Türkiyənin Nuruosmaniyə kitabxanasındakı ən qədim nüsxənin avtoqraf olması güman edilir [9].

Azərbaycanda isə, Səfiəddin əl-Urməvinin *"Kitab əl-Ədvar"* əsərinin Əlyazmalar İnstitutunda mühafizə olunan yeganə əlyazma nüsxəsi B-5408 şifri altında *"Risalə fi mərifəti ən-nəğm"* adı ilə qorunmaqdadır [13, v. 121b-141b].



Əsər əlyazma toplusunun 120b-141b vərəqlərini əhatə edir. 120a vərəqində ərəb dilində *"Səfiəddin əl-Faxir Əbdülmömin Urməvinin Ədvarı əlavə edilmişdir"* sözləri yazılmışdır. Əsər Avropa istehsalı olan yarı ahərli sarımtıl rəngli kağızlara qara nürəkkəblə səliqəli nəsx xətti ilə köçürülmüşdür. Mətndə bəzi sözlərin, o cümlədən musiqiyə aid dairələr, notlar qırmızı rəngli mürəkkəblə yazılıb. Mətnin haşiyələrində müxtəlif istiqamətlərə nisbətən kiçik şriftlə, qara və qırmızı rəngli mürəkkəblə yazılmış qeydlər var. Əsərin sonunda, əlyazma məcmuəsinin 141b-142a vərəqlərində *"Musiqi elminin nəzm ilə bəyanı"* adı ilə fars dilində olan musiqi haqqında nəstəliq xətti ilə yazılmış mənzum əsər var. Cildi kartona keçirilmiş qəhvəyi rəngli dəridir, cildin üzərinə vaxtı ilə bir böyük və iki balaca balaca basma medalyon vurulmuşdur. *"Kitab əl-Ədvar"* əsərinin nəfis əlyazma nüsxəsi h.10 Cumadi sani 1270 / m. 10 Mart 1854-cü ildə İsfahanda yerləşən əs-Sədr mədrəsəsində Azərbaycan katibi Məhəmməd Qulu bin Həsən Qarabağı tərəfindən hazırlanmışdır. Əlyazma toplusunun ümumi həcmi 148 vərəq, ölçüsü isə 14 x 21,5 sm.dir.

*"Kitab əl-Ədvar"* əsərinin internet saytlarında *"Əl-Ədvar"* [14] və *"Kitab əl-Ədvar fi əl-musiqi"* [15] adı ilə iki elektron variantı yerləşdirilmişdir. *"Kitab əl-Ədvar fi əl-musiqi"* h. Zül-Qəda 1103 / m. İyul 1692-ci ildə Məsud bin Hüseyn tərəfindən köçürülmüşdür və Amerika Birləşmiş Ştatlarının Pensilvaniya ştatının kitabxanasında mühafizə olunmaqdadır. Bundan əlavə Türkiyənin Nuruosmaniyə kitabxanasındakı h. 633 / m. 1235-ci ildə müəllif tərəfəsindən köçürülməsi güman edilən ən qədim nüsxəsinin fotosurətinə də rast gəlindi. Əlyazmalar İnstitutunda saxlanılan nüsxə və bu üç nüsxəni araşdırarkən aşağıdakı nüsxə fərqləri aşkarlanmışdır:



*"Əl-Ədvar"* adı ilə qeyd olunan PDF-də əsər başlamamışdan əvvəl musiqiyə aid cədvəl verilmişdir. Digər nüsxələrdə bu cədvələ rast gəlinmədi. "*Kitab əl-Ədvar fi əl-musiqi"* kimi verilən nüsxədə isə əsərin ikinci fəslində 4 səhifəni əhatə edən musiqi notları verilmişdir. Həmçinin, əsərin beşinci fəslində olan şərhlər digər nüsxələrdə yalnız sözlərlə verilibsə də, bu nüsxədə həndəsi-musiqi fiqurlarla açıqlanmışdır. *"Əl-Ədvar"* adlı nüsxədə üçüncü fəslində udun şəkli həkk oluub, bu şəklə digər nüsxələrdə rast gəlinmədi. Altıncı fəsildə verilən dairə və dairələr haqqında məlumat verilir və sonra rast kimi muğamlara aid dairələr çəkilmişdir. Bu dairələrin şərhi verildikdən sonra bu dairələrə aid olan səsləri hər katib özünə məxsus tərzdə cədvəl içərisində təqdim etmişdir. Məşhur dövrlər haqqında olan doqquzuncu fəsldəki cədvəlləri hər katib müxtəlif cədvəllər ilə təqdim etmişdir. Əsərin sonunda da həmçinin, hər dörd nüsxədə müxtəlif fərqləri görmək olar. Əlyazmalar İnstitutunda mühafizə olunan nüsxə ilə Nuruosmaniyə kitabxanasında olan nüsxə arasında cüzi fərqlərin olmasına baxmayaraq tam uyğun gəlir.



**Nəticə**

*Səfiəddin əl-Urməvinin Şərq və Qərb musiqi nəzəriyyəsinin inkişafında əvəzsiz xidmətləri olmuş və bu haqda Azərbaycan, eləcə də müxtəlif dövlətlərin tədqiqatçıları araşdırma apararaq yüksək səviyyədə tədqiqatlar təqdim etmişlər. Lakin bu tədqiqatlarda, Azərbaycanda saxlanılan Səfiəddin əl-Urməvinin "Əl-Ədvar fi əl-musiqi" əsərinin əlyazma nüsxəsi haqqında məlumata rast gəlinmədi. Bakıda saxlanılan yeganə əlyazma nüsxəsi haqqında olan bu araşdırma əlyazmaşünaslıq sahəsinə yenilik gətirdiyi kimi, musiqişünaslıq sahəsinə də yenilik gətirərək "Əl-Ədvar fi əl-musiqi" əsəri haqqında olan növbəti tədqiqatlara öz töhfəsini verəcəkdir.*

**Ədəbiyyat siyahısı:**


1. http://urmiyem.blogspot.com/2009/11/blog-post_32.html 12 Noyabr, 2009
2. https://az.wikipedia.org/wiki/S%C9%99fi%C9%99ddin_Urm%C9%99vi
3. Uygün M. N. Safiyyüddin el-Urmevi // Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / İstanbul: Türkiye Diyanet Vakfı yayınları, - c. 35. – 2008. - s. 479-480.
4. https://web.archive.org/web/20200212103747/https:/arabvoice.com/40430/-الموسيقى-العربية-القديمه-صفي-الدين-ال/
5. https://www.marefa.org/الأرموي
6. Uygün M. N. Er-Risaletü’ş-Şerefiyye // Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / İstanbul: Türkiye Diyanet Vakfı yayınları, - c. 35. – 2008. - s. 130-131.
7. Uygün M. N. Kitabü’l-Edvar // Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / İstanbul: Türkiye Diyanet Vakfı yayınları, - c. 26. – 2002. - s. 97-98.
8. Uygün M. N. Safiyyuddin Abdulmumin Urməvi ve “Kitabü’l-Edvar”ı. — İstanbul: - 1996. – 307s.
9. https://www.saramusik.org/10/texte/
10. Akpınar C. Fethullah eş-Şirvanî // Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / İstanbul: Türkiye Diyanet Vakfı yayınları, - c. 12. – 1995. - s. 463-466.
11. Topkapı Sarayı Müzesi Kütüphanesi arapça yazmalar kataloğu // Hazırlayan: Karatay F. E. [3 ciltte] / İstanbul: Topkapı Sarayı Müzesi yayınları, - c. 3. – 1966. – 952 s.
12. Səfərova Z. Azərbaycan musiqi elmi (XIII-XX əsrlər). – Bakı: Azərnəşr, 2006. - 544 s.
13. كتاب الأدوار. صفي الدين الأرموي Əlyazmalar İnstitutu. B-5408, v. 121b-141b, h. 1270 / m. 1854. İsfahan.
14. https://archive.org/details/mukhtaserurmavvi/page/n1/mode/2up
15. https://archive.org/details/ljs294/page/n8/mode/2up



**Yegana Rahnulla**

**Paleographic characteristics and comparative analysis of the manuscript copy of “Al-Advar fi al-musici”**

One of the works contributed by the Azerbaijani people to the culture in the Arabic language is the book named “*Al-Advar fi al-musici”* by Safiaddin Abdulmomin b. Yusif b. Fakhr al-Urmawi, a composer, music theorist, and calligrapher. The work dealt with the voice and style which are the main elements of music, consists of the brief introduction and fifteen chapters. Safiaddin al-Urmawi’s work “*Al-Advar fi al-musici*” played a significant role in developing Eastern and Western music. This book was widely used in the writing of subsequent works.

In the Institute of Manuscripts of ANAS is preserved the only copy of the work “Kitab al-Advar” transcribed in 1854 (h. 1270) by Mahammad Qulu bin Hasan Garabaghi, Azerbaijani scribe. Safiaddin al-Urmawi had invaluable services in the development of Eastern and Western music theory. The Azerbaijani researchers and those from different countries have presented comprehensive studies about Urmavi’s activities. However, no information about the manuscript copy of Safiaddin al-Urmawi’s work “*Al-Advar fi al-musici*” preserved in Baku was found in these studies. As this research brings innovation to the field of manuscript studies, it will also bring the same one to musicology and contribute to the next research about the work “*Al-Advar fi al-musici*”.


***Key words:*** *Azerbaijani composer, music theorist, calligrapher, Safiaddin al-Urmawi, Al-Advar fi al-musici, Azerbaijan manuscripts*

İlahiyyat üzrə fəlsəfə doktoru, dosent
**Nailə Süleymanova** tərəfindən çapa tövsiyə olunmuşdur.